AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 6 (1466), 16 - 22 fevral 2021-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*

## *Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası əməkdaşlarının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin*

### Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının 90 illiyi münasibətilə Azərbaycanda bədən tərbiyəsi və idman sahəsində kadr hazırlığındakı xidmətlərinə görə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının aşağıdakı əməkdaşları təltif edilsinlər:

**"Şöhrət" ordeni ilə**

Hacıyev Fuad Hacı oğlu

**"Tərəqqi" medalı ilə**

Adıgözəlova Leyla Xudat qızı
Cabbarlı Bəhruz Ərzuman oğlu
Əbiyev Qalib Şamil oğlu
Əbiyev Telman Qulam oğlu
Hüseynov Fərhad Cəfər oğlu
Quliyev Yusif Nazir oğlu
Mahmudova Zümrüd Arif qızı.

*İlham Əliyev*
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 11 fevral 2021-ci il.***

## *D.Q.Quliyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin*

### Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının 90 illiyi münasibətilə Azərbaycanda bədən tərbiyəsi və idman sahəsində kadr hazırlığındakı xidmətlərinə görə Dilqəm Qasım oğlu Quliyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev*
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 11 fevral 2021-ci il.***

## *Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının əməkdaşlarına fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin*

### Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının 90 illiyi münasibətilə Azərbaycanda bədən tərbiyəsi və idman sahəsində kadr hazırlığındakı xidmətlərinə görə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının aşağıdakı əməkdaşlarına Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar müəllim"**

Adıgözəlova Vəfa Alman qızı
Ağayeva Validə Eldar qızı
Bağırova Rəfiqə Məzahir qızı
Əhmədova Lalə Yaşar qızı
Heydərov Nemət Əliməmməd oğlu
Xəlilov Rəhim Həsən oğlu
İbrahimli Arif Məmmədqulu oğlu
Qurbanov Oqtay Hüseyn oğlu

**"Əməkdar bədən tərbiyəsi və idman xadimi"**

Bağırov Soltan Sədrəddin oğlu
Cəfərov Qəmbər Məhərrəm oğlu
Əliyev İlqar Səfəralı oğlu
Məcidov Nazim Böyük-Ağa oğlu
Rüstəmov Bəxtiyar Əyyub oğlu.

*İlham Əliyev*
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 11 fevral 2021-ci il.***

## Beynəlxalq Olimpiya Komitəsi tərəfindən "Playbook"un təqdimatı keçirilib

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) pandemiya ilə bağlı təhlükəsizlik tədbirləri və hazırlıqlarının yer aldığı "Playbook"un təqdimatı olub.

Tokio-2020-yə hazırlıq çərçivəsində nümayəndə heyətləri rəhbərləri üçün nəzərdə tutulan onlayn təqdimat mərasimində BOK prezidenti Tomas Bax, qurumun Milli Olimpiya komitələri ilə əlaqələr şöbəsinin rəhbəri Ceyms Maklaud və Tokio-2020-nin Əməliyyat Komitəsinin məsul şəxsləri iştirak ediblər.

Təqdimat mərasimində çıxış edən T.Bax bildirib ki, "Playbook"un hazırlanması Olimpiya Oyunlarına bir addım da yaxınlaşmaq deməkdir.

Mərasimdə bildirilib ki, Tokio-2020 Yay Olimpiya Oyunları üçün "COCOA" adlandırılan xüsusi mobil tətbiq hazırlanıb. Proqram pandemiya ilə mübarizəyə həsr olunan və yoluxma riskini azaltmaq məqsədilə hazırlanan tədbirlər planı çərçivəsində ərsəyə gətirilib. Olimpiya Oyunlarına qatılacaq ölkələrin nümayəndə heyətlərinin hər bir üzvü bu proqramı 14 gün əvvəl öz mobil telefonuna yükləməlidir. Bundan sonra proqramın tələb etdiyi məlumatlar (hərarət, öskürək, ümumi vəziyyət və.s) haqda informasiyalar 14 gün ərzində mobil tətbiqə daxil edilməlidir. Bu Tokio-2020-yə qatılacaq hər bir iştirakçının sağlıq durumu haqda Oyunların Əməliyyat Komitəsinin müvafiq qurumunun məlumatlandırılmasına xidmət edəcək. Bundan başqa, Tokio-2020 Yay Olimpiya Oyunlarına yola düşməzdən 72 saat əvvəl nümayəndə heyəti üzvləri PZR testi verməlidir. İlkin qərara əsasən, Olimpiya kəndində hər kəs dörd gündən bir test verəcək. Xüsusi olaraq qeyd edilib ki, virusa qarşı ən yüksək təhlükəsizlik tədbirləri görülüb. İdmançılar və məşqçilər, media, beynəlxalq federasiyalar həmçinin, yayım işini həyata keçirəcək qurumlar üçün fərqli "Playbook"lar hazırlanıb.

Sonda Tokio-2020 Yay Olimpiya Oyunlarının Əməliyyat Komitəsinin məsul şəxsləri ölkələrin Olimpiya komitələri nümayəndələrinin çoxsaylı suallarına cavab verib. MOK-un beynəlxalq əlaqələr departamentinin rəhbəri Anar Bağırov və marketinq departamentinin rəhbəri Mehman Kərimov təqdimatda iştirak ediblər.

## *Anons*

Paralimpiyaçılarımız Dubay Qran-Prisindən Vətənə 3 medalla qayıdıblar **Səh. 2**

**Nadir Əliyev:** ***"Biz işimizi işğaldan azad olunmuş torpaqlarda da davam etdirəcəyik"*** **Səh. 3**

***Çempionlar Liqasında həyəcan başlayır*** **Səh. 4**

İdmanda baş verən qeyri-adi hadisələr və qeydə alınan faktlar **Səh. 7**

## *Olimpizm*

### Tokio-2020-nin Təşkilat Komitəsinin rəhbəri istefa verdi

Tokio Yay Olimpiya və Paralimpiya Oyunları Təşkilat Komitəsinin rəhbəri Yoşiro Mori tutduğu vəzifəsindən istefa verib. Buna səbəb isə Y.Morinin qadınlar barədə səsləndirdiyi fikirlərdən sonra baş verən qalmaqal olub.

"Mən vəzifəmdən istefa verirəm. Yersiz ifadələrimlə böyük narahatlıq yaratdım. Baş verən bu narahatlığa görə hamıdan üzr istəyirəm. Hazırda əsas məsələ Olimpiadanın keçirilməsidir", - deyə Y.Mori NHK telekanalı vasitəsi ilə açıqlama verib.

Xatırladaq ki, ötən həftə yarışlara hazırlıqla bağlı təşkil edilən iclasların birində Y.Mori belə müzakirələrdə qadınların həddindən artıq çox danışdığını və nəticədə bunun böyük vaxt itkisinə səbəb olduğunu söyləyib. Təşkilat Komitəsinin rəhbərinin bu fikri həm ölkə daxilində, həm də xaricdə çox böyük ajiotaja səbəb olub.

Cəmiyyətin kəskin tənqidi ilə qarşılaşan Y.Mori mətbuat konfransı keçirərək bu hərəkətinə görə üzr istəsə də, bunun heç bir xeyri olmayıb və cəmiyyətdə onun istefa verməsi tələbləri irəli sürülüb.

Yaponiyanın Baş naziri Yoşihide Suqa da parlamentdə dinləmələr zamanı Olimpiadanın Təşkilat Komitəsinin sədrinin fikirlərinin Olimpiya Hərəkatının ruhu ilə ziddiyyət təşkil etdiyini deyib. Y.Morinin fikirlərini Yaponiya Olimpiya və Paralimpiya məsələləri naziri xanım Seyko Haşimoto da tənqid edib.

Beynəlxalq Olimpiya Komitəsinin də məsələyə müdaxilə etməsinə baxmayaraq, Y.Morinin istefası qaçılmaz olub.

Bu ərəfədə Yaponiya KİV-ləri Y.Morinin əfsanəvi futbolçu, Yaponiya Futbol Liqasının ilk prezidenti Saburo Kavabuçi ilə bir saatlıq görüş keçirməsi barədə məlumatlar yayıb. Bildirilir ki, görüşdə söhbət S.Kavabuçinin Olimpiya Oyunları üzrə Təşkilat Komitəsinə rəhbərlik etməsindən gedib. Həmin gün S.Kavabuçi həmin vəzifəni tutmağa hazır olduğunu bəyan etsə də, sonradan bundan imtina edib.

Həmin vəzifəni tutacaq namizədlər arasında Yaponiya Olimpiya və Paralimpiya məsələləri naziri xanım Seyko Haşimotonun da adı çəkilir.

### BOK Yoşiro Morinin istefa qərarına hörmətlə yanaşıb



Beynəlxalq Olimpiya Komitəsi (BOK) Tokio Yay Olimpiya və Paralimpiya oyunlarının Təşkilat Komitəsinin sədri Yoşiro Morinin qadınlar barədə səsləndirdiyi fikirlərə görə baş verən qalmaqal səbəbindən istefa qərarına hörmətlə yanaşır və başa düşür.

Bu fikirləri BOK prezidenti Tomas Bax bildirib. O qeyd edib ki, BOK Yoşiro Morinin təqaüdə çıxma ilə bağlı qərarına tam hörmət edir və bunun səbəblərini anlayır. Bununla yanaşı, BOK rəsmisi Y.Morinin ötən illər ərzində Tokionu ən hazırlıqlı Olimpiya şəhəri halına gətirməyə kömək etdiyini vurğulayıb.

## Paralimpiyaçılarımız Dubay Qran-Prisindən Vətənə 3 medalla qayıdıblar




Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) atletika idman növü üzrə milli komandası fevralın 15-də Vətənə qayıdıb. Dubayda keçirilmiş Qran-Pridə 6 idmançı ilə təmsil olunan komandamız yarışlarda 1 qızıl və 2 bürünc medal qazanıb. Belə ki, Heydər Həmidli nizə atmada (F57 kateqoriyası) birinci, Elvin Astanov (F53 kateqoriyası) və Oloxan Musayev (F56 kateqoriyası) nüvəitələmə yarışlarında üçüncü pillədə yer alıblar.

H.Həmidli və E.Astanov dünya reytinqinin ilk onluğunda qərarlaşaraq, Tokio-2020 XVI Yay Paralimpiya Oyunlarına lisenziya qazanmaq şanslarını daha da artırıblar.

Qeyd edək ki, aprelin 1-də Beynəlxalq Para Atletika Federasiyası Tokio-2020-yə lisenziya qazanmış idmançıların adlarını açıqlayacaq.

Bu günə kimi para atletlərimizdən Oloxan Musayev, Samir Nəbiyev və Kamil Əliyev 2019-cu ildə dünya çempionatındakı nailiyyətlərinə görə, Tokio-2020-yə birbaşa lisenziya qazanıblar.

## Uşaq Paralimpiya Hərəkatının "Valideyn Klubu" üçün təqdimat olub



Azərbaycan Milli Paralimpiya Komitəsində (AMPK) "İstanbul Ortopedi Medikal Sağlıq Ürünləri İmalat və Satışı" MMC-nin təsisçisi, iş adamı, protez-ortez üzrə ali dərəcəli mütəxəssis Davud Kahramanın iştirakı ilə Uşaq Paralimpiya Hərəkatının "Valideyn Klubu" üçün təqdimat olub.

AMPK-dan verilən məlumata görə, təqdimatda fiziki məhdudiyyətli idmançıların istifadəsi üçün nəzərdə tutulmuş ortopedik məmulatlar, protezlər, avadanlıqlar və reabilitasiya ləvazimatları nümayiş edilib.

Görüşə AMPK-nın tibb mütəxəssisi Saday Abdullayev, "Valideyn Klubu"nun koordinatoru Ülkər Əlizadə və idmançıların valideynləri qatılıblar.

Təqdimatdan sonra valideynlərə və qonaqlara AMPK-nın 25 illik yubileyinə həsr olunmuş "Yenilməzlər" adlı roman təqdim edilib.



## *AMADA-nın direktoru onlayn beynəlxalq tədbirdə iştirak edib*

Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) direktoru Şəfəq Hüseynli UNESCO-nun İdmanda Dopinqə Qarşı Beynəlxalq Konvensiyanın iştirakçısı olan Dövlətlərin Milli Uyğunluq Platformalarının virtual məsləhətləşmələrində iştirak edib. İclas zamanı tərəf dövlətlərin UNESCO Konvensiyasına uyğunluğunun monitorinqi və hesabat təqdim etmə prosesi müzakirə edilib.

Milli Uyğunluq Platformalarının məsləhətləşmələri UNESCO-nun İdmanda Dopinqə qarşı Beynəlxalq Konvensiyanın Tərəfləri Konfransı çərçivəsində baş tutur.

## Qadın güləşçilərimiz Kiyevdə təlim-məşq toplanışında iştirak edirlər

Qadın güləşi üzrə Azərbaycan millisi fevralın 12-də növbəti təlim-məşq toplanışına start verib. Azərbaycan Güləş Federasiyasından verilən məlumata görə, yığmamız baş məşqçi Aslan Ağayev və məşqçi Rövşən Umudovun rəhbərliyi altında Ukraynanın paytaxtı Kiyevdə hazırlıq keçir. Fevralın 25-dək davam edəcək hazırlıq prosesi "Konça-Zaspa" Olimpiya Kompleksində təşkil olunub.

Martın 18-dən 21-dək Macarıstanın paytaxtı Budapeştdə keçiriləcək Avropa Olimpiya Təsnifat turnirinə hazırlıq xarakteri daşıyan toplanışda Türkan Nəsirova (50 kq), Leyla Qurbanova, Tatyana Varansova (hər ikisi 53 kq), Tatyana Omelçenko (62 kq), Elis Manolova (65 kq), İrina Netreba (68 kq), Gözəl Zutova və Səbirə Əliyeva (hər ikisi 76 kq) iştirak edirlər.

Qeyd edək ki, təlim-məşq toplanışı başa çatdıqdan sonra komandamızın fevralın 26-dan 28-dək Kiyevdə Ukraynanın məşhur güləşçilərinin və məşqçilərinin xatirəsinə keçiriləcək ənənəvi yarışda iştirakı nəzərdə tutulub.

## Könüllülərlə "İdmanın dünəni və bu günü" mövzusunda onlayn görüş

"İdmanın dünəni və bu günü" adlı onlayn görüş keçirilib. Tədbirdə cüdo bölməsinin müəllimi, Əməkdar idman xadimi Bəxtiyar Məmmədov və yunan-Roma güləşi üzrə məşqçi Tariyel Məmmədov könüllülərlə görüşüblər. "Azərbaycan İdman Könüllüləri" İctimai Birliyinin sədri Miraqil Seyidzadə qonaqları təbrik edərək idmanın inkişafında veteran idmançıların rolundan bəhs edib.

Veteran idmançılar Bəxtiyar Məmmədov və Tariyel Məmmədov tədbir iştirakçılarına idmana gəlişlərindən, məşqçi kimi qazandıqları uğurlardan, təcrübələrindən danışıblar. Onlar məşqçi kimi gördükləri işin çətinliklərindən və öhdəliklərindən danışaraq, Azərbaycan bayrağını idman arenalarında da ucaltmaq üçün daim səy göstərəcəklərini bildiriblər.

Sonra veteran idmançılar gənclərin suallarını cavablandırıb və tövsiyələrini veriblər.

# Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr olunmuş turnir




Vətən müharibəsi şəhidi Aqil Mirzəliyevin xatirəsinə həsr edilmiş blits üzrə şahmat turniri keçirilib. 100-dək şahmatçının iştirak etdiyi turnirdə ən yüksək nəticə göstərən Rəvan Uğuzov, Allahverdi Həmidov, İqbal Əsədov




ümumi hesabda ilk üçlükdə qərarlaşıblar. Qızlar arasında Şəms Fərzəli birinci yerə layiq görülüb. Aysel Cəfərova və Məryəm Ağaverdiyeva isə ikinci və üçüncü yerləri tutublar.

Turnir Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin və "Premier School Off Chess"in birgə təşkilatçılığı ilə "Lichess.org" onlayn şahmat platformasında təşkil olunub.

Qeyd edək ki, Aqil Mirzəliyev oktyabrın 20-də Xocavənd rayonunun Tuğ kəndi istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Qəhrəman döyüşçü ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.

* * *

Vətən müharibəsinin şəhidi Ülvi Məmmədovun xatirəsinə həsr olunmuş blits üzrə beynəlxalq "Zəfər" kuboku turniri keçirilib. Turnirdə Azərbaycan, Türkiyə, İran və Gürcüstandan 100-ə yaxın şahmatçı iştirak edib. Yarışın keçirilməsində əsas məqsəd Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsini əbədiləşdirmək, onların şərəfli həyat yolunu təbliğ etməkdən ibarət olub.

Məktəblilər arasında İsveçrə sistemi üzrə onlayn formatda keçirilən turnirdə 7 turdan maksimum xal toplayan Kənan Qarayev yarışın qalibi olub. Türkiyə təmsilçisi Mustafa Can 6 xalla ikinci, onunla eyni xalı yığan Rəvan Uğuzov üçüncü yerləri tutublar.

Xatırladaq ki, İkinci Qarabağ müharibəsində qəhrəmancasına şəhid olmuş Ülvi Məmmədov "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.

* * *

Fevralın 14-də "Karabakh is Azerbaijan" onlayn şahmat seriyası çərçivəsində "Shusha Cup" turniri keçirilib. Chess.az saytının təşkil etdiyi seriya yarışının 5-ci mərhələsində 77 şahmatçı mübarizə aparıb. Turnirdə ən yüksək nəticəni 11 oyundan 8,5 xal toplayan İsmayıl Süleymanlı tutub. Onunla eyni xalı yığan Nurlan Hacıyev və Aydın Allahverdiyev əlavə göstəricilərə görə, müvafiq olaraq, ikinci və üçüncü yerlərdə qərarlaşıblar.

Beş turnirdən sonra Azərbaycan şahmatçısı Elnur Mehtiyev 20 xalla birinci yerdədir. Digər təmsilçimiz Orxan Bağırov eyni xalla ikinci, Türkiyə şahmatçısı Kutay Sakmak 16 xalla üçüncü pillədə qərarlaşıblar.




Qeyd edək ki, indiyədək keçirilmiş dörd turnirdə Azərbaycan, Türkiyə, Ukrayna və Hindistandan 200-ə yaxın şahmatçı iştirak edib.

Seriya çərçivəsində bundan sonra daha 3 yarışın - fevralın 21-də "Agdam Cup", fevralın 28-də "Kalbajar Cup", martın 7-də isə "Lachin Cup" turnirlərinin təşkili planlaşdırılıb. Seriya ümumilikdə, 8 turnir və böyük finaldan ibarət olacaq. Hər bir turnir işğaldan azad olunmuş şəhərlərimizin adını daşıyacaq. Səkkiz turnirin hər birində ilk altı yeri tutmuş şahmatçılar böyük finala düşmək üçün xallar qazanacaqlar.

Seriyanın sonunda, ən çox xal toplamış ilk 10 şahmatçı martın 14-də keçiriləcək böyük finalda oynamaq hüququ əldə edəcək.

## *İdman gimnastikası üzrə fərdi çoxnövçülük yarışının iki mərhələsi ləğv edildi*

Tokio-2020 Yay Olimpiya Oyunlarına təsnifat xarakterli idman gimnastikası üzrə fərdi çoxnövçülük yarışının iki mərhələsi ləğv olunub. 4 mərhələdən ibarət olan "All-Around World Cup Series" turnirinin yalnız ABŞ-ın Milouoki şəhərindəki turniri təşkil olunub. Ötən ilin mart və aprel aylarında Almaniyanın Ştutqart, Böyük Britaniyanın Birmingem və Yaponiyanın Tokio şəhərlərində nəzərdə tutulan yarışlar isə koronavirus pandemiyası səbəbindən 2021-ci ilə təxirə salınmışdı.

Son qərara əsasən Ştutqart və Birmingem mərhələləri baş tutmayacaq. Mayın 4-də Tokioda keçiriləcək olan və Olimpiadaya test xarakteri daşıyan yarışla bağlı məsələyə isə hələlik baxılmayıb.

Olimpiya təsnifat sisteminin qaydalarına görə, seriyanın nəticələrini Tokio-2020-yə vəsiqə kimi təsdiqləmək üçün ən azı üç mərhələ keçirilməli və həm kişilər, həm də qadınlar arasında idman gimnastikasında bu seriyada təşkil olunan üç Olimpiya lisenziyası yenidən bölüşdürülməlidir.

Qaydalara əsasən, kvotalar 2019-cu il dünya kubokunun təsnifat mərhələlərində komanda yarışlarında ən yüksək yerləri tutan ölkələrə verilir. Beləliklə, Tokio Olimpiadası üçün kişi idman gimnastikasında Rusiya, Çin və Yaponiya, qadın idman gimnastikasında isə ABŞ, Çin və Rusiya vəsiqə əldə edib.

## Avropa çempionatı azarkeşsiz keçiriləcək

Bu il İsveçrədə keçiriləcək idman gimnastikası üzrə Avropa çempionatı tamaşaçısız keçiriləcək. Bu barədə "Avropa Gimnastikası"nın mətbuat xidməti məlumat yayıb. Məlumatda bildirilib ki, yerli Təşkilat Komitəsinin rəhbəri Katrin Amaker bu qərarın idmançıların sağlamlığına görə qəbul edildiyini vurğulayıb: "Tribunaların boş olması, eləcə də, azarkeşlərin mübarizəni yalnız evdən izləyə biləcəkləri üçün kədərləndik. Ancaq sağlamlıq hər şeydən vacibdir".

Turnir Bazeldə aprelin 21-25-də təşkil ediləcək. Satılmış biletlər üçün bütün pullar geri qaytarılacaq.

*Bizim müsahibə*

**Ötən il daha çox dünyada pandemiya ilə yadda qaldı. Hər bir sahədə olduğu kimi, idman da bu virusdan xeyli zərər çəkdi. İl ərzində keçirilməsi planlaşdırılan mühüm idman tədbirləri karantin səbəbindən təxirə salındı. Olimpiya Oyunları kimi mötəbər idman yarışı öz vaxtında keçirilmədi. Olimpiya Oyunları da daxil olmaqla 2020-ci ilin əksər yarışlarının təqvimi bu ilə dəyişdirildi. Böyük idman çox ağır vəziyyətlə üzləşdi. Lakin bu son deyil. Son günlərdə yoluxmada qeydə alınan azalma bizə ümid verir ki, hər bir sahədə olduğu kimi, idmanda da yeni bir dövr başlayır. Lakin ötən il ölkəmiz üçün təkcə pandemiya ilə yadda qalmadı. 44 günlük Vətən müharibəsində rəşadətli ordumuz illərdən bəri düşmən tapdağı altında qalan əraziləri azad etdi. 2020-ci il bizim üçün zəfər ili kimi yadda qaldı. Torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə şəhid olan və yaralanan vətən övladları arasında idmançıların, bu sahədə çalışan insanların da sayı az olmadı. Bütün bu məsələlərlə bağlı “Olimpiya dünyası” qəzeti olaraq, Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları İctimai Birliyinin (AHİTA) sədri, Əməkdar bədən tərbiyəsi və idman xadimi Nadir Əliyevlə görüşüb, söhbət etdik.**

# Nadir Əliyev:

## *“Biz işimizi işğaldan azad olunmuş torpaqlarda da davam etdirəcəyik”*



***- Nadir müəllim, ötən il pandemiyaya görə mötəbər idman yarışları və tədbirlər təxirə salındı. Rəhbərlik etdiyiniz qurumda ötən ildə yarımçıq qalan işlərin yeni ildə həyata keçirilməsi ilə əlaqədar hansı planlar nəzərdə tutulur?***

- Bizim Gənclər və İdman Nazirliyi və Milli Olimpiya Komitəsi tərəfindən təsdiq olunmuş birgə iş planımız var. Həmin plan əsasında tədbirlərimizi həyata keçiririk. Qurumumuzun tərkibində olan “Spartak” İdman Cəmiyyəti və “Gənclik” Tələbə İdman Cəmiyyəti beynəlxalq təşkilatların üzvləridirlər. Bu təşkilatların beynəlxalq tədbirləri də məlum səbəblərdən dayandırılıb. Demək olar ki, mart ayından bu günə qədər idmanla bağlı heç bir tədbir keçirilməyib. Bizim qurumun tərkibində şahmat və dama idman klubları da var ki, onlar onlayn qaydada tədbirlərini davam etdirirlər. Güləş, cüdo, sambo və digər idman növləri üzrə isə heç bir tədbir təşkil edilməyib. Həmin idman növləri ilə məşğul olan idmançılar fiziki hazırlığını qoruyub saxlamaq üçün dəniz kənarında, açıq meydançalarda məşqlər edirlər. Biz də öz növbəmizdə onları geyimlə, təqaüdlə təmin etmişik ki, pandemiya dövründə heç bir çətinliklə üzləşməsinlər.

***- Necə düşünürsünüz, postpandemiya dövründə idman yarışlarının təqvimində hər hansısa bir dəyişiklik ola bilərmi?***

- Təbii ki, bütün dünya koronavirus adlı bu bəlaya qarşı mübarizə aparır. Digər ölkələrdə olduğu kimi, ölkəmizdə də virus əleyhinə vaksinasiya prosesinə başlanılıb. Gec ya tez, bu bəla başa çatacaq. Artıq pandemiya ilə əlaqədar karantin rejimində də müəyyən yumşalmalar var.

Ümumiyyətlə, idmanı seçənlər o qədər sağlamdırlar ki, onlar nadir hallarda virusa yoluxurlar. Yalnız səhhətində müəyyən problemləri olanlar bu virusla üzləşirlər. İdmançılarımız məşqçilərin nəzarəti altındadırlar. Onların immuniteti və sağlamlığı yerindədir. O ki, qaldı sualınızın digər tərəfinə, bunu yəqin ki, zaman göstərəcək. Hər şey əlaqədar qurumların verdiyi qərarlardan asılı olacaq. Məhz həmin qərarlara əsasən isə biz öz iş planımızı quracağıq.

Məlumat üçün qeyd edim ki, bizim 2021-ci il üçün təqvim planımız artıq təsdiq olunub. İnşallah, pandemiya başa çatar və hər şey qaydasına düşər. Hər birimiz böyük idman üçün çox darıxmışıq. Tezliklə idmançılarımız da qələbələri ilə hamımızı sevindirərlər.

***- Sizcə pandemiya idmançılarımızın çıxışına nə dərəcədə təsir edəcək?***




- Düzdür, istənilən halda uzun müddət stabil məşq keçməyən idmançı əvvəlki formasından bir qədər kənarda qalacaq. Amma idmançılarımız təcrübəlidirlər. Pandemiya dövründə evdə qalsalar belə, idmansız qalmırdılar. Çalışırdılar ki, formalarını qorusunlar. Amma düşünürəm ki, çox olmasa belə pandemiyanın izləri müəyyən qədər təsir edəcək. Hazırda AHİTA-nın tərkibinə daxil olan klub və cəmiyyətlərin boks, güləş və cüdo növləri ilə məşğul olan idmançıları milli komandalarının heyətində qarşıdakı yarışlara və Olimpiya Oyunlarına hazırlaşırlar. Fikrimcə, pandemiya idmançılarımızın çıxışlarına o qədər də yüksək təsir etməyəcək.

### “Azarkeşsiz heç bir yarışdan istədiyin zövqü almaq olmur”

***- Beynəlxalq Olimpiya Komitəsi son qərarlarında Olimpiya Oyunlarının azarkeşsiz keçirilmə məsələsini də nəzərdən keçirir. Azarkeşsiz olimpiadanı necə təsəvvür edirsiniz, bu, idmançıların çıxışına nə kimi təsirini göstərə bilər?***

- Təbii ki, təsir edəcək. Azarkeş olmayan yerdə yüksək nəticə əldə etmək mümkün deyil. Çünki bir idmançıya dəstək verən və yarışa gözəllik bəxş edən azarkeşlərdir. Bildiyiniz kimi, əksər xarici ölkələrin futbol çempionatları azarkeşsiz keçirilir. Belə olan halda görün, nə qədər komanda ziyanla üzləşir. Təbii ki komandalar da azarkeşlərdən əlavə motivasiya alır. Amma azarkeş dəstəyinin olmaması bəzən uğursuz nəticələrə gətirib çıxarır. İdmanın bəzəyi azarkeşlərdir. Azarkeşsiz heç bir yarışdan istədiyin zövqü almaq olmur. Amma yoluxmalar azalır. Mənə elə gəlir ki, hər şey qaydasına düşəcək.



***- Boks, güləş və cüdo idman növlərindən söz açdınız. Məlum olduğu kimi, AHİTA-nın tərkibində olan idman cəmiyyətlərinin idmançıları da yığma komandalarımızın heyətində yer alıblar. Yəqin ki, onların arasında da Tokio-2020-ə və digər mötəbər yarışlara hazırlaşan idmançılarımız var.***

- Olimpiya Oyunlarından söz düşmüşkən qeyd edim ki, son üç olimpiadada yığma komandanın tərkibində həmişə Həmkarların idmançıları təmsil olunublar. O cümlədən “Atilla” cüdo klubunun idmançıları Azərbaycan yığmasının tərkibində çıxış edirlər. “Pəhləvan” və “Zenit” idman cəmiyyətlərinin də yetirmələri olimpiadalarda fəal iştirak edirlər. Bir sözlə, AHİTA-dan 30 faizə yaxın idmançı olimpiadalarda təmsil olunub. Hazırda “Zenit” İdman Cəmiyyətinin yetirməsi olan Əfqan Xaşalov sərbəst güləş üzrə yığmamızın üzvüdür. İnanıram ki, o, və digər idmançılarımız olimpiadaya lisenziya qazanaraq planetin ən böyük idman tədbirində ölkəmizi təmsil edəcəklər. Qeyd edim ki, Əfqan Xaşalov 44 gün davam edən Vətən müharibəsində də fəal şəkildə iştirak etdi. Bir vaxtlar xalça üzərində mübarizə aparan güləşçimiz döyüş meydanında da öz hünərini düşmənə göstərdi. O, döyüşlərdə olduğu üçün bir müddət məşqlərə ara versə də, müharibədən qayıtdıqdan sonra yenidən məşqlərini bərpa edib.

***- İstərdik bir qədər də universiadalar barədə söhbətimizi davam etdirək. Bu yarış da Azərbaycan idmançıları üçün heç də yad deyil. Maraqlıdır, bu il Çinin ev sahibliyi edəcəyi yarışlara tələbə idmançılarımız necə hazırlaşacaqlar?***

- Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Milli Olimpiya Komitəsi və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının birgə qərarı ilə Respublika Universiadasının bu ilin may-iyun aylarında keçirilməsi təsdiq olunacaq. Bir ay ərzində keçiriləcək universiadaların nəticəsində idman növləri üzrə yığmalar müəyyən olunacaq. Bundan sonra Ümumdünya Yay Universiadasına yollanacaq heyət müəyyənləşəcək. Bildiyiniz kimi, hər universiadalarda idman növləri fərqli olur. Təbii ki, universiada yarışlarının proqramında olan bütün idman növlərində təmsil olunmaq qeyri-mümkündür. Amma çalışacağıq ki, tələbə-idmançılarımız bu universiadada da ölkəmizi layiqincə təmsil etsinlər. Hazırda bu işlərlə “Gənclik” Tələbə İdman Cəmiyyəti məşğul olur. Onu da əlavə edim ki, Universiada yarışları iştirakçı sayına görə Olimpiya Oyunlarını qabaqlayır. Vaxt yaxınlaşdıqca universiadada iştirak edəcək idmançıların say tərkibi müəyyənləşəcək.

***- Yeri gəlmişkən, Çin ardıcıl üç böyük idman tədbirinə ev sahibliyi edəcək - XXXI Ümumdünya Yay Universiadası (Çendu-2021), Qış Olimpiya Oyunları (Pekin-2022) və Asiya Oyunları (Xancjou-2022).***

- Onların bu sahədə də böyük təcrübəsi var. Bundan əlavə, Çində idman qurğularının hamısı tələbələrin ixtiyarındadır. Mən 2008-ci ildə Pekində keçirilən Olimpiya Oyunlarında iştirak etmişəm. Pekin-2008-in infrastrukturu hələ də qalıb. Orada hər bir universitetin çox mükəmməl qurğuları var. Bütün yarışlar məhz universitetlərin idman qurğularında keçirilir. Buna görə də əminəm ki, Çin bu mötəbər yarışların öhdəsindən layiqincə gələcək.

### “Biz həmin qurğulara nə qədər ziyan vurulmasını müəyyən edə bilmirik”

***- İstərdik ki, söhbətimizi Vətən müharibəsi ilə bağlı davam etdirək. Digər qurumlarda olduğu kimi, AHİTA-nın da əməkdaşları arasında bu haqq savaşında iştirak edənlər oldu.***

- Bəli, məndə olan məlumata görə hazırda siyahıda 6 nəfər var. “Qarabağ” İdman Cəmiyyətindən İlkin Əsədov, “Pəhləvan” Respublika İdman Klubundan Ruslan Şəmilov, Rəsul Əsgərov, “Gənclik” Tələbə İdman Cəmiyyətindən Rusif İbadov, “Məhsul” İdman Cəmiyyətindən İbiş Əbilbəyli və “Zenit” İdman Cəmiyyətindən Əfqan Xaşalov. Birinci Qarabağ müharibəsində də bizim qurumun əməkdaşları fəal iştirak ediblər. Bizim təkcə Vətən müharibəsində deyil, birinci Qarabağ savaşında da cəbhəyə yollanan könüllülərimiz olub. Müharibə illərində bəzi mütəxəssislərimiz vətən uğrunda döyüşlərdə şəhidlik zirvəsinə yüksəliblər. Buna misal olaraq milli qəhrəman Əliyar Əliyevi, Füzuli rayon şurasının sədri Polad Əliyevi xüsusi qeyd etmək istərdim. Təcrübəli mütəxəssisimiz düşmənin snayper gülləsinə tuş gəlmişdi. Allahdan bütün şəhidlərimizə rəhmət diləyirəm. Təbii ki, bu gün Vətən müharibəsində iştirak edən əməkdaşlarımızı diqqətdə saxlayır, onların ailələrinin ehtiyaclarını qarşılamağa çalışırıq.

***- Dövlət tərəfindən azad olunmuş ərazilərə qayıdış planı nəzərdə tutulub. Bu planda hər bir sahə öz əksini tapıb. Bəs idmanın yenidən əzəli torpaqlarımıza qayıdışı necə olacaq?***

- Bir neçə gün bundan əvvəl Əmlak Məsələləri Dövlət Komitəsindən bizim baş idarəyə məktub daxil olub. Məktubda idman qurğularının pasportu, işğaldan qabaq vəziyyəti, 1992-ci ilə qədər olan qiyməti barədə məlumatları bir araya toplanması üçün məsələlər yer alıb. Biz həmin qurğulara nə qədər ziyan vurulmasını hələlik müəyyən edə bilmirik. Əminliklə deyə bilərəm ki, ən yaxşı qurğu Xankəndidədir. Bizə hələ o səlahiyyət verilməyib ki, gedib işğaldan azad olan ərazilərə yerində baxaq. İşğaldan azad olunmuş bölgələrin sədrləri bizdə işləyir. Həm də bizim tərkibimizdə “Qarabağ” İdman Cəmiyyəti var. Onun yerləşdiyi yer Şuşa şəhəridir. Hazırda “Qarabağ” İdman Cəmiyyəti minaların təmizlənməsini və digər məslələri gözləyir. Bizə nə zaman tapşırıq verilərsə, bu işin icrası üçün tam hazırıq. Biz işimizi işğaldan azad olunmuş torpaqlarda da davam etdirəcəyik.

***Anar Əhmədov,***
***Azər Əlizadə***

## İdmançımız Qırğızıstanda beynəlxalq yarışın qalibi oldu



Azərbaycanlı idmançı Tünzalə İmanlı Qırğızıstanın Oş şəhərində keçirilən qaydasız döyüş üzrə beynəlxalq turnirdə “super kəmər”in sahibi olub. Həmyerlimiz 55 kiloqram çəki dərəcəsində yarışda bütün rəqiblərini məğlub edərək qalib adını qazanıb. İdmançı bu qələbəsini ikinci Vətən müharibəsində şəhid olan Vətən oğullarının xatirəsinə həsr etdiyini bildirib. Rusiyanın Novosibirsk şəhərində yaşayan T.İmanlı yarışlarda Azərbaycan bayrağı altında çıxış edir.

Qeyd edək ki, uşaqlar və böyüklər arasında keçirilən yarışda 700-dən artıq idmançı qüvvəsini sınayıb.

## “Opera Euro Rapid” turnirində üçüncü yer

*Norveçli dünya çempionu Maqnus Karlsenin təşkil etdiyi şahmat üzrə Çempionlar Turunun “Opera Euro Rapid” adlanan III mərhələsinə yekun vurulub.*

Turnirdə ölkəmizi təmsil edən qrossmeysterimiz Teymur Rəcəbov bürünc medala sahib çıxıb. Şahmatçımız fransalı zəka sahibi Maksim Vaşye-Laqravı 3-cü yer uğrunda mübarizədə hər iki gün ərzində məğlub edib - 2,5:1,5, 2:0.

Turnirin qalibi isə finalda hazırkı dünya çempionu, Maqnus Karlsenə qalib gələn ABŞ təmsilçisi Uesli So olub.

Uesli So qalib olmaqla yanaşı, həmçinin 30 min ABŞ dollarına da sahib çıxıb.

Xatırladaq ki, Teymur Rəcəbov “Champions Chess Tour” seriyası çərçivəsində keçirilən ikinci - “Airthings Masters” turnirinin finalında Ermənistan təmsilçisi Levon Aronyanı məğlub edərək yarışın qalibi olub.

## Triatlon üzrə lisenziya yarışları dayandırıldı



Beynəlxalq Triantlon Şurasının iclası keçirilib. Videokonfrans formatında keçirilən tədbirdə koronavirus pandemiyası ilə əlaqədar mövcud vəziyyət müzakirə olunub. Tokio Yay Olimpiya və Paralimpiya Oyunlarına lisenziya xarakterli yarışlarla bağlı fikir mübadiləsi aparan Şura üzvləri bütün turnirlərin təxirə salınmasına qərar verib. Yarışlar mayın 1-nə qədər dayandırıb.

Bu addım idmançılar, məşqçilər, tibbi və texnika komitələrlə müzakirələrdən sonra atılıb. Ötən ilin martında dondurulan Olimpiya reytinq cədvəli, həmçinin lisenziya turnirlərinin taleyi ilə bağlı yekun qərar isə martın 18-də veriləcək.

Şuranın yığıncağında 2021-ci ilin təqvimi də müzakirə olunub. Dünya çempionatının da mayın 1-dən sonra keçirilməsinə qərar verilib. Martın 20-də keçirilməli olan dünya kuboku isə ləğv edilib.

## Çempionlar Liqasında həyəcan başlayır

Bu gün Avropanın ən nüfuzlu klub turniri olan UEFA Çempionlar Liqasında 1/8 final mərhələsinin ilk oyunlarına start veriləcək. İlk oyun günündə iki qarşılaşma keçiriləcək. Günün ən maraqla gözlənilən qarşılaşması İspaniyada oynanılacaq. Kataloniya təmsilçisi “Barselona” “Nou Kamp”da PSJ-ni qəbul edəcək. Hər iki komanda oyuna itkilərlə çıxacaq. “Barselona”nın heyətində Ansu Fati, Filipe Koutinyo və Martin Braitvayt zədəlidir. Fransa təmsilçisinin heyətində isə Neymar və Anhel Di Mariyanın matçda iştirak etməyəcəyi gözlənilir. Oyunun baş hakimi Niderland Futbol Federasiyasından Byörn Küypers olacaq. Ona həmyerliləri Sander van Roekel və Ercin Zeinstra kömək edəcək. Dördüncü hakim funksiyasını Serdar Gözübüyük yerinə yetirəcək.

Günün digər oyununda isə Almaniyanın “Leypsiq” klubu Macarıstandakı “Puskaş Arena” stadionunda İngiltərənin “Liverpul” klubunu qəbul edəcək. Görüşün idarə olunması Sloveniya Futbol Federasiyasından Slavko Vinçiçə həvalə olunub. Köməkçi hakimlər Tomas Klançnik və Andraz Kovaçiç, dördüncü hakim Matey Yug olacaq.

İkinci yarış günündə isə daha iki komanda 1/4 finala çıxmaq üçün mübarizə aparacaq. Gecənin maraqla gözlənilən qarşılaşmasında “Portu” “Draqao”da “Yuventus”u qəbul edəcək. Günün digər matçında isə İspaniya təmsilçisi “Sevilya” “Roman Sançez Psixuan”da Dortmund “Borussiya”sını sınağa çəkəcək.

Qeyd edək ki, Çempionlar Liqasının 1/8 final mərhələsinin oyunları Bakı vaxtı ilə saat 00:00-da başlayacaq.

## *“Bavariya” “Barselona”nın rekordunu təkrarladı*

Almaniyanın “Bavariya” komandası FIFA-nın təşkil etdiyi klublararası dünya çempionatının qalibi olub. Qətərin Al Rayyan şəhərində oynanılan final qarşılaşmasında UEFA Çempionlar Liqasının sonuncu qalibi “Bavariya” Şimali Amerika Futbol Konfederasiyasının




(CONCACAF) qalibi “Tigres UANL” (Meksika) komandasını minimal hesabla məğlub edib. Oyunda yeganə qolu “Bavariya”nın fransalı müdafiəçisi Benjamen Pavar vurub. O, matçın 59-cu dəqiqəsində fərqlənərək oyunun taleyini həll edib.

Bununla da “Bavariya” ikinci dəfə bu turnirin qalibi olub. Komanda 2013-cü ildə finalda Mərakeşin “Raca Kasablanka” klubunu 2:0 hesabı ilə məğlub edib.

Turnirdə üçüncü yer uğrunda oyunda ev sahibi “Əl Əhli” klubu Braziliyanın “Palmeyras” komandasını məğlub edib. Əsas vaxtı 0:0 hesabı ilə başa çatan qarşılaşmada “Əl Əhli” 11 metrlik cərimə zərbələri seriyasında qalib gəlib - 3:2.

Qeyd edək ki, “Bavariya” klubu bu çempion olmaqda həm də İspaniyanın “Barselona” komandasının rekordunu təkrarlayıb. Hans Diter-Flikin baş məşqçi olduğu komanda bir il ərzində mümkün 6 titulun hamısını qazanıb. Münhen təmsilçisi 2019/2020 mövsümündə Almaniya Bundesliqasının, ölkə kubokunun və Çempionlar Liqasının qalibi olub. “Bavariya” 2020-ci ildə UEFA Super Kubokuna və Almaniya Super Kubokuna da yiyələnib. Son olaraq, bu nəticəni 2009-cu ildə “Barselona” göstərib.

Klublararası dünya çempionatında ən çox qalib gələn komanda Madridin “Real” klubudur. İspaniya təmsilçisi 4 dəfə - 2014-cü, 2016-cı, 2017-ci və 2018-ci illərdə bu turnirin kubokunu başı üzərinə qaldırıb. Bu göstəriciyə görə “Barselona” (2009, 2011, 2015) ikinci sırada qərarlaşıb. Turnirin ötənilki qalibi isə İngiltərənin “Liverpul” komandası olub.

# Formula 1

## Dünyanın ən populyar ikinci idman növü

Keçən il Formula 1 mövsümünün təqviminin qısaldılmasına və 2019-cu illə müqayisədə dörd mərhələ az olmasına baxmayaraq, Formula 1-in digər idman növləri ilə müqayisədə auditoriyası genişlənib.

“Shareablee” araşdırma mərkəzinin məlumatına görə, F1 auditoriyasında artım 2020-ci ildə onlayn xidmətlər və sosial şəbəkələrdən fəal istifadənin hesabına olub. Belə ki, hazırda 35 milyon insan dünya çempionatını rəqəmsal platformalardan istifadə edərək izləyir ki, bu da ötənilkinə nisbətən 36 faiz çoxdur. Bununla da, abunə sayında artım baxımından Formula 1 dünyanın ən populyar ikinci idman növü hesab olunur.

## Çempionatda yeni dəyişikliklər olacaq

Formula 1-də yaxın gələcəkdə yeni dəyişikliklər gözlənilir. Növbəti ildən reqlament dəyişikliyi çempionatda qüvvələr nisbətini dəyişə bilər. Bu həm yeni komandaların, həm də mühərrik istehsalçılarının səhnəyə çıxmasına şərait yaradacaq. Bu, həmçinin pilotların yerdəyişməsinə də səbəb olacaq. Növbəti mövsüm Formula 1-də yeni komanda debüt edə bilər. Nüfuzlu avtoidman portallarının məlumatına görə, “Monaco İncrase Managment” şirkətinin yaradıcısı olan biznesmen Salvadore Qandolfo belə bir planla çıxış edib. Formula 2-də çıxış edən “Kampos” komandasının resursları əsasında yaradılacaq bu komanda “Monako Reysinq” adını daşıyacaq. Mətbuata açıqlama verən Qandolfo belə bir fikrə Formula 1-in rəhbəri Stefano Domenikalinin bu yaxınlarda açıqlamasından sonra düşdüyünü söyləyib. S.Domenikali yaxın gələcəkdə çempionatda debüt etmək istəyən komandalardan əlavə üzvlük haqqı almaq istəmədiklərini söyləyib.




Formula 1-də daha bir yeni qurum çıxış edə bilər. Söhbət komandaları mühərriklə təmin edən zavoddan gedir. “Honda”nın Formula 1 komandaları üçün mühərrik hazırlamaqdan imtina etməsi “Audi”nin onun yerini tutmasına səbəb ola bilər.

Yaponiya konserni “Red Bull”u mühərriklə təmin edir. Mövsümün sonunda isə “Honda” “Kral avtoyarışları”ndan gedəcəyini açıqlayıb. Elə Maks Ferstappen də mövsümün sonunda “Red Bull”dan ayrılacağı müzakirə olunur. “Mercedes” mövsümün sonunadək müqavilə imzaladığı pilotu Lüis Hemiltonla növbəti mövsüm əməkdaşlığı davam etdirməkdə o qədər də həvəsli deyil. Elə mətbuata açıqlamasında “Mercedes”in rəhbəri Toto Volf da britaniyalı pilotun komandadan gedəcəyini istisna etməyib. L.Hemiltonun gedişindən sonra isə Maks Ferstappenin “Mercedes”ə keçəcəyi haqda söhbətlər dolaşır.

## Qran-Prinin tarixi təsdiqlənib

Beynəlxalq Avtomobil Federasiyası (FIA) Formula 1 Portuqaliya Qran-Prisinin tarixini təsdiqləyib. Yarışın mayın 2-də keçiriləcəyi qərara alınıb. Belə ki, FIA-nın Formula 1 komissiyasının iclasından sonra verdiyi açıqlamada qeyd edilən tarixdə yürüşün Portuqaliyanın Portimao avtodromunda baş tutacağı bildirilib.

Qeyd edək ki, Azərbaycan Qran-Prisi iyunun 4-6-da təşkil olunacaq.

## Qəza törədən pilot təcili əməliyyat olundu



Formula 1-in ikiqat çempionu, ispaniyalı pilot Fernando Alonso velosiped sürərkən avtomobil vurub. Bu barədə “La Gazzetta dello Sport” xəbər verib. Bildirilir ki, hadisə İsveçrənin Luqano şəhəri yaxınlığında velosiped təlimi zamanı baş verib. 39 yaşlı pilot çoxsaylı sınıq şübhəsi ilə xəstəxanaya aparılıb. 2016-cı ildə Azərbaycanda keçirilmiş Formula 1 üzrə Avropa Qran-Prisinin səfiri olmuş F.Alonso qəza nəticəsində aldığı zədə səbəbindən təcili əməliyyat olunub. F.Alonso Formula 1-də 17 mövsüm ərzində “Minardi”, “Renault”, “McLaren” və “Ferrari” komandaların heyətində mübarizə aparıb, 2005-ci və 2006-cı illərdə dünya çempionu titulunu qazanıb.

Unudulmayan əfsanələr

# Ötən il idman dünyasını tərk edən ulduzlar

***2020-ci il dünya üçün düşərli olmadı, desək, yəqin ki, yanılmarıq. Belə ki, ilin əvvəlindən dünya müxtəlif təbii fəlakətlər və virusla üz-üzə gəldi. Sürətlə yayılan COVİD-19 virusu müxtəlif sahələrlə yanaşı, idman sahəsinə də zərbə vurdu. Bütün dünyanı ɔənginə alan koronavirus pandemiyası kiçikmiqyaslı yarışlardan tutmuş, planetin ən mötəbər idman hadisəsi olan Tokio-2020 Yay Olimpiya Oyunlarının belə təxirə salınmasına səbəb oldu. Lakin ən acınacağlısı odur ki, 2020-ci il idman dünyasında tayı-bərabəri olmayan idmançıları aramızdan apardı. "Olimpiya dünyası" qəzeti budəfəki sayında ötən il dünyasını dəyişən unudulmaz idmançıların bir qismini oxucularımızla birgə yad edir.***



## "Qara Mamba"

2020-ci ilə qədəm qoyar-qoymaz idman dünyasını sarsıdan hadisə baş verdi. Dünya basketbol tarixinin ən məşhur simalarından biri olan Kobi Brayant yanvarın 26-da helikopter qəzası nəticəsində həlak oldu. Qəza zamanı helikopterdə "Los Anceles Leykers" klubunun keçmiş basketbolçusu ilə birgə onun 13 yaşlı qızı Cianna və daha yeddi nəfər dünyasını dəyişdi.

Milli Basketbol Assosiasiyasında (NBA) çıxış etdiyi 20 mövsümdə K.Brayant "Los-Anceles Leykers" klubunun şərəfini qoruyaraq, beş dəfə çempion titulunu qazanıb.

Müdafiəçi 18 dəfə NBA-nın bütün ulduzlar oyununda iştirak edib. ABŞ millisinin tərkibində isə o, iki dəfə Olimpiya Oyunlarının qalibi olub. Kobi Brayant idman karyerasını 2016-ci ildə bitirib.

Basketbolçu 2018-ci ildə isə "Əziz baskebol" adlı qısametrajlı cizgi filminə görə "Oskar" mükafatı qazanıb.

"Qara Mamba" ləqəbli idmançı 2020-ci ildə NBA-nın şöhrət zalına daxil edilib. Dördqat NBA çempionu Kobi Brayant ölümündən sonra "Emmi" mükafatına layiq görülüb.

## "Tanrının əli"

Noyabrın 25-i bütün dünya idmansevərləri üçün əsl faciə oldu desək, bəlkə də, yanılmarıq. Belə ki, məhz həmin gün 1986-cı ilin dünya çempionu, XX əsrin ən yaxşı futbolçusu Dieqo Armando Maradonanın xroniki ürək çatışmazlığından vəfat etdiyi xəbəri yayıldı. O, 1986-cı ildə Meksikada keçirilən dünya çempionatının qalibi, 1990-cı ildə isə İtaliyada təşkil olunan dünya çempionatının gümüş mükafatçısı idi. Həmçinin D.Maradona 1989-cu il Amerika Kubokunun birinc mükafatçısı və 1979-cu ildə gənclər arasında keçirilən dünya çempionatının qalibi olub.



"Tanrının əli" ifadəsi D.Maradonaya İngiltərə millisi ilə keçirilən oyunda onun əli ilə vurduğu qoldan sonra verilib. Minlərlə azarkeşin gözü önündə baş verən səhvi hakim qol olaraq qeydə alıb. Bununla da, Argentina çempion adını qazanıb.

"Qızıl oğlan" ləqəbli futbolçu bu addımına bəraət qazandıraraq, bu əlin onun deyil "tanrının əli" olduğunu deyirdi. Bu hadisədən sonra "tanrının əli" ifadəsi deyiləndə, hər kəsin gözü önündə Dieqo Maradona canlanır.

## "Çempionların atası"

Ötən il iyulun 3-də sərbəst güləş üzrə tanınmış rusiyalı idmançı, məşqçi, SSR idman ustası Abdulmanap Nurməhəmmədov 58 yaşında vəfat etdi. A. Nurməhəmmədov Rusiyanın Əməkdar məşqçisi, döyüş sambosu üzrə Dağıstan millisinin baş məşqçisi olub. O, cüdo və sambo üzrə Ukrayna çempionu idi.



2019-cu ilin sentyabr ayında Abdulmanap Nurməhəmmədov döyüş sambosu üzrə ən çox çempion yetişdirdiyinə görə, Rusiyanın Rekordlar Kitabına daxil edilib. Məşqçilik fəaliyyəti dövründə o, yüngül çəki dərəcəsində UFC çempionu olan oğlu Həbib Nurməhəmmədov da daxil olmaqla, döyüş sambosu üzrə 18 dünya çempionu yetişdirib.

## "Bəxtsiz yarışçı"

İdman aləmi ötən il həm də sürətsevərlər üçün də itki ilə yadda qaldı. Belə ki, Formula 1-in ən sürətli əfsanəvi pilotlarından biri



olan britaniyalı idmançı Ser Stirlinq Moss dünyasını dəyişdi. Veteran pilot aprelin 12-də uzun müddətli xəstəlikdən sonra 90 yaşında vəfat etdi. Həyat yoldaşı Süzi onun ölümünü "o, sadəcə yoruldu, gözəl gözlərini bağladı və hər şey bitdi" deyə təsvir etdi.

Ser Stirlinq Moss Formula 1-də 1951-1961-ci illərdə çıxış edib. O, Targa Florionun qalibi (1955) və "Le Mananın 24 saatı" turnirinin mükafatçısıdır. Formula 1 yarışları çərçivəsində tarixin ən bəxti gətirməyən yarışçısı hesab olunur. Belə ki, yarışlarda dəfələrlə mübarizə aparsa da, dünya birincisi olmaq ona qismət olmadı. Dörd dəfə dünya ikincisi olan əfsanəvi yarışçı həmçinin üç dəfə mövsümü ümumi hesabda üçüncü yerdə başa vurub. Ser Stirlinq Moss Formula 1 dünya çempionatı mərhələləri çərçivəsində "Mersedes", "Maserati", "Vanwall", "Cooper" və "Lotus" avtomobilləri ilə 16 dəfə qələbə qazanıb. Formula 1-in qeyri-rəsmi Qran-pri yarışlarında isə 19 dəfə birinci olub.

2000-ci ildə veteran pilot "cəngavər" tituluna layiq görülüb.

## "Pablito"

İtaliya millisinin 64 yaşlı keçmiş futbolçusu Paolo Rossi dekabrın 9-da xərçəng



xəstəliyindən dünyasını dəyişdi. 1982-ci ildə İtaliya və İspaniya komandaları arasında keçirilən dünya çempionatı zamanı P.Rossiyə sanki "sehirli dəyənək" toxunaraq, onu əsl ulduza çevirdi. 4 oyundan heç birində qol vurmayan Paolo həmin gecə etdiyi hettriki sayəsində İtaliya millisi rəqibinə 3:2 hesabı ilə qalib gəldi. Sonra daha 3 qol vuran futbolçu turnirin bombardiri adını qazandı. Məlumata görə, qələbəni qeyd etmək üçün İtaliya sakinləri küçələrə axışmışdı.

Maraqlıdır ki, məşhur futbolçu "Peruca" komandasının şərəfini qoruyan zaman iki illik diskvalifikasiya alaraq, həbs edilmişdi. Buna səbəb isə futbolçunun fırıldaqçılıq, daha doğrusu, "Peruca" və "Avellino" oyununda iki qol vurmaq qarşılığında heç-heçə oynamağa hazır olması idi. Xoşbəxtlikdən turnirdən iki ay əvvəl P.Rossinin cəzası bitmişdi və o, öz "ulduz saatı"na yetişdi. Elə həmin il əfsanəvi futbolçu "qızıl top" mükafatına layiq görüldü.

Bildirək ki, Paolo Rossi idman karyerasında iştirak etdiyi 340 oyunda 134 qol vurub.

## "Dolab"

Seneqal yığmasının və İngiltərənin "Fulhem" klubunun keçmiş yarımmüdafiəçisi Papa Buba Diop noyabrın 29-da uzunmüddətli xəstəlikdən sonra vəfat etdi.

42 yaşlı futbolçuya əsl şöhrəti 2002-ci ildə keçirilən dünya çempionatında Fransa millisinin qapısından keçirdiyi qol gətirib. "Dolab" ləqəbli Papa Buba Diopun vurduğu qol nəticəsində Seneqal millisi Fransaya 1:0 hesabı ilə qalib gəlib. Məhz bundan sonra Fransa turnirdə mübarizəni dayandırdı,



Seneqal millisi isə dünya çempionatının 1/4 mərhələsinə yüksəldi.

Qeyd edək ki, Seneqal millisinin tərkibində Papa Buba Diop 63 oyun keçirib və 11 qol vurub.

***Hazırladı:***
***Türkay Niftəliyeva***




# "Neftçi" 8 nəfərlə "Qarabağ"a qalib gələrək liderliyə yüksəldi

Futbol üzrə Azərbaycan Premyer Liqasında XV turun oyunları keçirilib. Turun açılış matçında "Sumqayıt" və "Səbail" klubları üz-üzə gəliblər. "Kapital Bank Arena"da keçirilmiş görüş meydan sahiblərinin böyük hesablı qələbəsi ilə yekunlaşıb - 3:0. İlk topu 26-cı dəqiqədə Murad Xaçayev vurub. Bundan 7 dəqiqə sonra Tellur Mütəllimov baxımlı qola imza atıb. Görüşün 55-ci dəqiqəsində Peyman Keşavarzi qırmızı vərəqə alaraq qonaq komandanı azlıqda qoyub. Oyunda son nöqtəni isə 83-cü dəqiqədə penaltidən Əli Qurbani qoyub.

"Səbail" oyunu 9 nəfərlə başa vurub. Görüşün 90-cı dəqiqəsində Kamran Ağayev kobud oyuna görə qırmızı vərəqə alıb. Bu vaxt qonaqlar hər 3 oyunçu dəyişikliyindən istifadə etdiyi üçün qapıya müdafiəçi Adil Nağıyev keçib.

Bu qələbə sayəsində "Sumqayıt" xallarının sayını 22-yə çatdırsa da, 4-cü pillədə qalıb. "Səbail" isə 13 xalla 7-cidir.

XV turun mərkəzi qarşılaşması "Qarabağ" və "Neftçi" komandaları arasında oynanılıb. Tofiq Bəhramov adına Respublika Stadionunda keçirilən görüş qonaqların qələbəsi ilə yekunlaşıb - 1:2.

Görüş "Neftçi" komandası üçün yaxşı başlamayıb. 22-ci dəqiqədə "ağ-qaralar"ın sağ cinah müdafiəçisi Ömər Buludov rəqib komandanın kapitanı Maksim Medvedevə qarşı kobud oynayaraq meydandan qovulub. Amma flaqman azlıqda qalmasına baxmayaraq, 6 dəqiqə sonra Namik Ələskərovun qolu ilə hesabı açıb. İlk hissə bu hesabla başa çatıb. İkinci hissəyə fəal başlayan "Qarabağ" 58-ci dəqiqədə tarazlığı bərpa edib. Cərimə meydançasındakı qarışıqlıqdan istifadə edən Mahir Əmrəli fərqlənib.

Matçın 72-ci dəqiqəsində "Qarabağ"ın cərimə meydançasında "köhlən atlar"ın müdafiəçisi Kevin Medina ilə qonaq komandanın yarımmüdafiəçisi Mamadu Kane arasında dava düşüb. Rəqibini vuran Medina birbaşa qırmızı vərəqə ilə meydandan qovulub. Ardınca isə Kane ikinci sarı vərəqəni görərək, komandasını azlıqda qoyub. 75-ci dəqiqədə təyin olunmuş penaltini dəqiq yerinə yetirən Namik Ələskərov komandasına vacib qələbə qazandırıb. Matçın əsas vaxtına əlavə olunmuş 3-cü dəqiqədə "Neftçi" 8 nəfərlə qalıb. Voislav Stankoviç ikinci sarı vərəqəni görərək meydanı tərk edib.

Bu qələbə sayəsində "Neftçi" xalını 30-a çatdıraraq turnir cədvəlində liderliyə yüksəlib. "Qarabağ" isə 29 xalla ikinci yerdə qərarlaşıb.

Turun ikinci oyun günündə "Qəbələ" klubu "Keşlə" komandasını qəbul edib. Qarşılaşma meydan sahiblərinin 2:0 hesablı qələbəsi ilə başa çatıb. Əyalət təmsilçisinin qollarını 50-ci dəqiqədə Merab Giqauri, 70-ci dəqiqədə isə Rafael Utriq vurub. Bu qələbə sayəsində 18-ci xalını qazanan "Qəbələ" 5-ci pillədəki mövqeyini qoruyub. "Keşlə" isə 13 xalla sonuncu pillədə yer alıb.

Turun son oyununda "Zirə" komandası "Sabah"ı qəbul edib. Qarşılaşma 2:2 hesabı ilə başa çatıb. "Sabah"ın heyətində Kevin Kubemba 9-cu dəqiqədə hesabı açıb. 79-cu dəqiqədə Davit Volkov bərabərlik qolunu vurub. Kubemba 82-ci dəqiqədə özünün və komandasının ikinci qoluna imza atıb. 90+3-cü dəqiqədə isə Klesio Bauk növbəti dəfə tarazlığı bərpa edib. Bu nəticədən sonra "Sabah" 14-cü xalını qazanaraq 6-cı pilləyə yüksəlib. "Zirə" isə 24 xalla 3-cü sırada qərarlaşıb.

# FUTBOL

# Avropadan transfer xəbərləri




## İspaniya

Madrid “Real”ı heyətinə “Sevilya”nın müdafiəçisi Dieqo Karlosu cəlb etməyə çalışır. Paytaxt klubu onu kapitan Serxio Ramosun əvəzləyicisi kimi görür.

Qeyd edək ki, 27 yaşlı futbolçu bu mövsüm “Sevilya”nın heyətində 29 oyuna çıxıb.

*   *   *

“Atletiko” “Ayntraxt”ın hücumçusu Andre Silvanın transferində maraqlıdır. Bundesliqa təmsilçisi də həmin futbolçunu satmağa hazırdır. Lakin frankfurtlular bu razılaşmadan ən azı 30 milyon avro əldə etmək istəyir.

Qeyd edək ki, Silva İngiltərə təmsilçisi “Vulverhempton”un da maraq dairəsindədir.

## İngiltərə

“Liverpul” “Derbi Kaunti”nin hücumçusu Kayde Qordonu transfer edib. 16 yaşlı oyunçu ilə müqavilə imzalanıb. Mersisayd təmsilçisi ingiltərəli oyunçu üçün təxminən 3 milyon funt ödəyib. Qordon bu vaxta qədər “Derbi Kaunti”nin əsas komandasında 1 matçda oynayıb.




“Liverpul” “Sportinq”də çıxış edən Pedro Qonsalveslə maraqlanır. Klub 22 yaşlı oyunçunun hücum xəttini gücləndirəcəyini düşünür. İngiltərə təmsilçisi artıq qarşı tərəflə bu keçid üçün qeyri-rəsmi danışıqlara başlayıb.

Qeyd edək ki, Qonsalves bu mövsüm Portuqaliya çempionatında 15 matçda 14 qol vurub və 2 qolun ötürməsini verib.

*   *   *

“Mançester Siti” rəhbərliyi Con Stounsu heyətdə saxlamağa qərar verib. Premyer Liqa təmsilçisi Stounsla müqaviləni uzadacaq. “Şəhərlilər” müqaviləsi 2022-ci ilin yayında başa çatacaq arxa xətt oyunçusunu daha uzun müddət sıralarında saxlamaq niyyətindədir.

Qeyd edək ki, Stouns cari mövsüm 20 oyunda 3 qol vurub.

Braziliyanın “Fluminense” klubunun hücumçusu Kayka karyerasını İngiltərədə davam etdirəcək. “Mançester Siti” 17 yaşlı forvardın transferini rəsmiləşdirməyə hazırlaşır. Klublar arasında danışıqlar artıq müsbət yekunlaşıb. Razılığa əsasən, “şəhərlilər” bu keçid müqabilində qarşı tərəfə 10 milyon avro ödəyəcək. Həmçinin futbolçunun performansına görə, Braziliya klubu daha 7 milyon avro bonus əldə edə bilər. Hazırda sənədləşmə işlərinin tamamlanması prosesi gedir. Ancaq Kayka 2022-ci ildə “Mançester Siti”nin gənclər komandasına qoşulacaq.

*   *   *

İngiltərənin “Çelsi” kubu yarımmüdafiəçisi Ross Barklini satmaq qərarına gəlib. “Aston Villa”da icarə əsasında çıxış edən 28 yaşlı orta sahə oyunçusunun qiyməti də artıq müəyyənləşib. “Zadəganlar” İngiltərə millisinin üzvünün transferindən 45 milyon avroluq gəlir əldə etməyi planlaşdırır. “Aston Villa” da qısa müddətdə komandanın liderinə çevrilən futbolçunun transferində maraqlıdır. Mövsümün sonunda klublar arasında maliyyə şərtləri müzakirə olunacaq.

Qeyd edək ki, Ross Barkli bu mövsüm Premyer Liqada keçirdiyi 14 oyunda 3 qol vurub, 1 məhsuldar ötürmə verib.

İngiltərənin “Çelsi” klubu Kristian Erikseni Londona gətirmək istəyir. Paytaxt təmsilçisi yarımmüdafiəçinin keçidi üçün onun forma geyindiyi İtaliya “İnter”i ilə danışıqlara başlayıb.

Premyer Liqa klubu Eriksenin əvəzinə Jorjinyonu təklif edib. Bir müddət əvvəl İtaliya vətəndaşı olan braziliyalının xidmətində maraq göstərən “İnter” Eriksenlə vidalaşmaq arzusundadır.

Qeyd edək ki, transfer pəncərəsinin əvvəlində Kristianın “Tottenhem”ə qayıdışı gözlənilirdi.

*   *   *

İngiltərənin “Lids” klubu “Liverpul”a keçəcək Rafinyaya əvəzləyici tapıb. Premyer Liqa təmsilçisi braziliyalının yerinə onun həmyerlisini gətirmək niyyətindədir. “Lids” klubu Almaniya “Bavariya”sında çıxış edən Duqlas Kostanı transfer etməyi planlaşdırır. 30 yaşlı yarımmüdafiəçi hazırda Münhen klubunda icarə əsasında çıxış edir. O, 2022-ci ilədək müqavilə ilə “Yuventus”a məxsusdur.

Qeyd edək ki, Kosta cari mövsümdə 21 oyun keçirib və 1 qol vurub.

*   *   *

Antoni Marsiyal mövsümün sonunda “Mançester Yunayted”i tərk edə bilər. İngiltərə klubu aparıcı futbolçusunu satmağı planlaşdırır.

Fransa millisinin üzvünün klubla müqavilə müddəti 2024-cü ilin yayına qədərdir. Lakin Premyer Liqa təmsilçisi 26 yaşlı hücumçunun satışından əldə olunacaq gəlirlə yeni transferə büdcə ayırmaq niyyətindədir. Marsiyalın hazırda transfer qiyməti 55 milyon avroya bərabər göstərilir.

Qeyd edək ki, cari mövsüm bütün turnirlərdə 28 oyun keçirən Marsiyal 7 qol vurub, 8 məhsuldar ötürmə verib.

*   *   *

İtaliyanın “Sampdoriya” klubunun futbolçusu Mikkel Damsorq Premyer Liqa təmsilçilərinin maraq dairəsinə düşüb.

Mikkel eyni vaxtda dörd klubun transfer siyahısında yer alıb. 20 yaşlı danimarkalı vingerinə əsas iddiaçı “Tottenhem”dir. Lakin “Lids”, “Vest Hem” və “Sauthempton” da futbolçu üçün mübarizə aparmaq əzmindədir.

Qeyd edək ki, danimarkalının transfer qiyməti 8 milyon avro ilə dəyərləndirilir.

## İtaliya

İtaliyanın “Milan” klubu Markos Senesini transfer etmək niyyətindədir. A seriyası təmsilçisi Niderlandın “Feyenoord” klubunun müdafiəçisi ilə maraqlanan ikinci Avropa nəhəngidir. Milanlılar futbolçunu ələ keçirmək üçün İspaniya “Real”ı ilə mübarizə aparır. “Rossonyeri” 23 yaşlı argentinalı üçün 25 milyon avro ödəməyə hazırdır. Qeyd edək ki, Senesi cari mövsüm 26 oyunda 2 qol vurub.

İtaliyanın “Milan” klubu hücumçusu Zlatan İbrahimoviçlə müqavilənin uzadılması barədə danışıqlara başlayacaq. Tərəflər daha bir mövsümlük anlaşmağı planlaşdırır. 39 yaşlı isveçli Milanın eyniadlı təmsilçisində qalmağın əleyhinə deyil. O, komandasını Çempionlar Liqasına qaytarmaq və qitənin ən nüfuzlu klub turnirində oynamaq niyyətindədir. Yeni müqavilədə Zlatanın maaşının azalacağı ehtimal edilir. Hazırda ildə 7 milyon avro qazanan forvard güzəştə getməli olacaq. Qeyd edək ki, İbrahimoviç cari mövsümün 17 matçında 16 qol vurub.

“Milan” icarə əsasında komandanın formasını geyinən Dioqo Dalotla bağlı qərarını verib. İtaliya klubu müqavilə ilə “Mançester Yunayted”ə məxsus olan sağ cinah müdafiəçisini birdəfəlik transfer etmək niyyətindədir. Tərəflər arasındakı razılığa əsasən, “rossonyerlər” portuqaliyalı oyunçunu yayda 19 milyon funt-sterlinqə ala bilər. Lakin A seriyası təmsilçisi məbləğdə endirim üçün ingilislərlə danışıq aparır.

Qeyd edək ki, Dioqo Dalot həmçinin İspaniya klubu “Barselona”nın maraq dairəsindədir.

*   *   *

Turin klubunu tərk edəcək Ronaldo İngiltərəyə dönə bilər. “Yuventus” maaşının azaldılmasına razı olmayan portuqaliyalı ulduzla yollarını




ayırmaq istəyir. “Mançester Yunayted” Paul Poqbanı “Yuventus”a verib, əvəzində Ronaldonu heyətinə qatmağı planlaşdırır.

Qeyd edək ki, Ronaldo 2003-2009-cu illərdə “Mançester Yunayted”də çıxış edib və 2009-cu ildə 94 milyon avroya Madrid “Real”ına transfer olunub.

Poqba isə 2012-ci ildə “Mançester Yunayted”dən “Yuventus”a pulsuz keçib. 2016-ci ildə isə 105 milyon avro qarşılığında İngiltərə klubuna qayıdıb.

*   *   *

“Yuventus” heyətini yeni futbolçu ilə gücləndirmək istəyir. Turin təmsilçisi “Roma”dan Nikolo Zaniolonu transfer etmək niyyətindədir. “Qoca sinyora” yaxında 21 yaşlı yarımmüdafiəçi üçün müqavilə təklif etməyi planlaşdırır.

Qeyd edək ki, Zaniolonun 2024-cü ilədək “Roma” ilə müqaviləsi var.

## Almaniya

“Bavariya” “Leypsiq”in müdafiəçisi Dayot Upamekanonun transferini həll edib.

23 yaşlı mərkəz müdafiəçisinin qiyməti barədə məlumat verilməsə də, onun münhenlilərlə 5 illik müqavilə imzaladığı açıqlanıb. Fransa millisinin üzvü iyulun 1-dən etibarən “Bavariya”nın futbolçusu olacaq.

*   *   *

“Latsio”nun qapıçısı Tomas Strakoşa karyerasını Almaniya Bundesliqada davam etdirə bilər.

25 yaşlı qapıçı Dortmund “Borussiya”sının maraq dairəsindədir. Albaniyalı futbolçunun özü də Bundesliqa klubuna keçməyə razıdır. Əgər tərəflər arasında razılıq əldə olunsa, Strakoşa mövsümlərarası fasilədə klubunu dəyişəcək. Qeyd edək ki, albaniyalının “Borussiya”nın maraq dairəsinə düşməsinə “Ayaks”ın qapıçısı Andre Onananın ağır cəzalanması səbəb olub. Dortmundluların transfer etmək istədiyi kamerunlu qapıçı dopinqə görə diskvalifikasiya edildiyindən Bundesliqa klubunun diqqəti Strakoşaya yönəlib.

## Fransa

Mövsümün sonunda Kilian Mbappeni itirmək təhlükəsi ilə üzləşən PSJ hücum xəttini “İnter”in forvardı Romelu Lukaku ilə gücləndirmək istəyir.

Baş məşqçi Mauritsio Poçettino hücumların cinahlarında Neymar və “Barselona”dan alınması planlaşdırılan Lionel Messi, Lukaku ilə “trio”nu tamamlamağı düşünür.

Qeyd edək ki, Lukaku həmçinin “Mançester Siti”nin maraq dairəsindədir.

## Türkiyə

“Qalatasaray” Meksika “Leon”undan Yayro Morenonu transfer etməyi planlaşdırır. 25 yaşlı müdafiəçinin hazırkı klubu ilə müqaviləni uzatmaq istəmədiyi və komandanı tərk etmək niyyətində olduğu bildirilib. Kolumbiyalı oyunçu Avropada çıxış etmək istəyir.

Qeyd edək ki, Moreno bu mövsüm 13 matç keçirib.

# İdmanda baş verən qeyri-adi hadisələr və qeydə alınan faktlar

*İdman aləmində baş verən hadisələr o qədər zəngindir ki, onları bir kitaba yerləşdirmək qeyri-mümkündür. Gün ərzində bütün dünyada keçirilən yarışların hər birində yaddaqalan məqamlar olur. Bu məqsədlə keçmişə nəzər salmaq yerinə düşər. Oxucularına maraqlı yazılar təqdim edən "Olimpiya dünyası" bu dəfə dünya idmanında qeydə alınan, lakin çoxlarının bilmədiyi hadisələri və faktları bir araya toplayıb. Həmin faktlar bu günə kimi də, öz əhəmiyyətini qoruyub saxlayır. Hesab edirik ki, oxucularımıza təqdim etdiyimiz bu faktlar idman haqqında bilgilərini bir qədər də artıracaq.*





*(əvvəli ötən saylarımızda)*

## 18 saata qazanılan məhsuldar qələbə

Biz həyətdə futbol oynayarkən hər zaman nə vaxta, nə də hesaba diqqət yetirməmişik. Lakin rəsmi futbol qarşılaşmalarında isə vaxt 90 dəqiqədən bir qədər çox çəkir.

Amma dünyada bir futbol matçı keçirilib ki, həmin görüşdə vaxta nəzər salsaq, heyrətlənməmək mümkün deyil. Belə ki, həmin görüş aprelin 11-də başlayıb, bir gün sonra sonra final fiti çalınıb. Böyük Britaniyada "Lids Bedcers" və Bristol akademiyasının komandası arasında keçirilən görüşdə futbolçular 36 saat meydançada olublar. Həmin görüşdə "Lids Bedcers"in qazandığı qələbədə 285:255 hesabı qeydə alınıb. Hesablamalara görə həmin görüşdə heyətin 18 futbolçusu yer alıb. Onların hər biri 18 saat stadionda mübarizə aparıblar. Bundan başqa hər bir futbolçu orta hesabla 70 km qaçıb. Görünür, qələbə üçün nə vaxt, nə də hər hansı manea əsas rol oynamır.

## Buz üstündə itirilən gülüş atributu

Diş canlılarda ərzağın ilkin mexaniki emalı üçün orqanizmin bir hissəsidir. İnsanda həmçinin aydın danışıq vasitələrindən biri və gülüş atributu kimi də istifadə edilir. İdmanda baş verən hadisələr zamanı tez-tez idmançılar dişlərindən məhrum olurlar. Maraqlıdır ki, belə hadisələr ən çox hokkeydə baş verir. Qoruyucu dəbilqələrin olmasına baxmayaraq, əksər hokkeyçilər bu halla tez-tez rastlaşırlar. Aparılan araşdırmalara görə, peşəkar hokkeyçilərin təxminən 68 faizinin dişi protez və yaxud implantdır (sonradan damağa əkilmiş diş - A.Ə). Buradan da görünür ki, idman təkcə sağlamlıq bəxş etmir, hərdən də sağlamlığın qəniminə çevrilir.

## Meydanın ən sürətlisi və dəf olunmuş qol

İngiltərəli qapıçı Co Hart (Çarlz Josef Con Hart) rəqibləri arasında ən sürətli və cəld futbolçu sayılır. Bu titula o, "Mançester Siti"- "Mançester Yunayted" görüşündən (30 dekabr, 2008-ci il. İngiltərə Premyer Liqası) sonra yiyələnib. Matçda "şəhərlilər" hesabda geri olmalarına baxmayaraq, futbolçular oyunu quru hesabla uduzmaq istəməyiblər. Bunun üçün komanda qapıçı da daxil olmaqla irəli atılıblar. Əks hücüm cəhdi komanda üçün təhlükəli olub. Co Hart son dəqiqələrdə komandasını daha bir qoldan xilas edib. Həmin hadisə necə baş verib? Nəzərə alaq ki, meydançanın uzunluğu 106 metrdir. Qapıçı meydançanın ikinci hissəsindən mübarizəyə qoşulub. Həmin mövqedən qapıya qədər məsafə 86 metrdir. Rəqibin əks hücumunu dəf etmək üçün Co Hart həmin məsafəni 11 saniyəyə qət edib. Nəzərə alsaq ki, 100 metr üçün qapıçıya 12,8 saniyə bəs edir, bu o qədər də yüksək nəticə sayılmır. Lakin Co Hartın həmin məsafədən öz mövqeyinə qayıdıb, topu qapıdan çıxarması ingiltərəlinin ən sürətli qapıçı olması üçün kifayət edir.

## Hansı idman növünün nə qədər azarkeşi var?

İdman yarışlarının tarixi eramızdan əvvələ gedib, çıxır. Bizim eramıza qədər öz populyarlığını qoruyub saxlayan idman növləri indi say baxımından daha çox azarkeş kütləsi toplayıb. Hər il planetin yarıdan çox sakini müxtəlif yarışları izləyir. Populyarlığına görə, ilk onluğu müəyyənləşdirərkən, mütəxəssislər futbolu hər zaman ilk pillədə qeyd edirlər. Sonrakı yerlərdə isə digər idman növləri xırda yerdəyişmələrə məruz qalırlar. Həmin siyahını oxucularımıza təqdim edirik.

Ən çox azarkeşi olan idman növləri:

1. Futbol - 4 milyard
2. Basketbol - 1,2 milyard
3. Böyük tennis - 1 milyard
4. Atletika - 900 milyon
5. Xizək idmanı - 750 milyon
6. Fiqurlu konkisürmə - 700 milyon
7. Formula 1 - 600 milyon
8. Boks - 550 milyon
9. Hokkey - 500 milyon
10. Voleybol - 300 milyon

## Gərginliyə tab gətirməyən ürək döyüntüsü

Təəssüf ki, idman tarixində məşq və yarış zamanı həyatla vidalaşan idmançıların sayı ildən-ilə artır. Bu xoşagəlməz hadisə ayrı-ayrı idman növlərində qeydə alınır. Lakin idman növləri arasında eləsi var ki, orada can itkisi daha çoxdur. Şimali Karolina Univesitetində aparılan araşdırmalara görə, idmanda ən çox ölüm hadisəsi ABŞ-da baş verir. Universitetin alimləri belə bir qərara gəliblər ki, okeanın o tayında ən təhlükəli idman növü Amerika futboludur. Bildirilir ki, bu növdə idmançıların əksəriyyəti fiziki gərginliyə tab gətirə bilmir. Əsasən onlar ürək çatışmazlığından həyatla vidalaşır. Növbəti təhlükə isə mübarizə zamanı oyunçuların bir-birilə toqquşmasından sonra baş verən fəsadlardan irəli gəlir. Bununla bağlı ölkədə əlaqədar qurumlar yeni layihələr üzərində işləyirlər.

## Başa endirilən zərbənin sonrakı fəsadı

Bir müddət əvvəl Beynəlxalq Olimpiya Komitəsi (BOK) ən təhükəli idman növlərinin siyahısını ictimaiyyətə açıqlamışdı. Sizcə, həmin siyahıda birinci pillədə hansı idman növü qərarlaşıb? Təbii ki, boks. Doğrudan da, boks o qədər təhlükəli idman növüdür ki, onunla məşğul olanların əksəriyyəti sağlamlığını qısa müddətdə qurban vermiş olur. Məlumdur ki, il ərzində bir boksçu cəmi iki-üç yarışda iştirak edə bilir. Necə ki, marafon yarışlarında çıxış edən atlet bir yarışdan sonra uzun müddət özünə gələ bilmir. Boksda baş nahiyəsinə vurulan zərbələr elə olur ki, hiss olunmur. Lakin bir-iki aydan sonra zərbənin fəsadı üzə çıxır. Burada kiminsə bəxti gətirir, kiminsə sağlamlığı təhlükə altına düşür. Boks tarixinə nəzər salsaq görərik ki, bu idman növündə çıxış edən əksər ulduz simalar ömrünün qalan hissəsini ciddi xəstəliklə yaşayıb, yaxud elə rinqdə aldığı zərbədən sonra xəstəxanada həyatla vidalaşıb. Məhəmməd Əlinin, Entoni Consun, Andraş Nadının həyatı haqqında məlumatı olanlar bunu daha yaxşı bilir.

## Ən çətin idman növü və meduzanın dişləri

İdman yarışlarını yaxından izləyən tamaşaçılar yaxşı bilirlər ki, triatlon ən çətin idman növlərindən biri sayılır. Bu idman növü ilə məşğul olanların orqanizmi o qədər güclü və dözümlü olmalıdır ki, sonda finişə çatmaq mümkün olsun. Triatlonda bir idmançı orta hesabla 3,86 km üzməli, 180,2 km velosiped sürməli, 42,195 km qaçmalıdır. Bu adi və asan məsələ deyil. Peşəkar yarışlar zamanı komanda şəkilində iştirak edən idmançıların əksəriyyəti finişə gəlib, çıxa bilmir. Hətta elə olur ki, idmançı bu və ya digər səbəbdən həyatla vidalaşır. Bəs o, hansı səbəbdir? Belə ki, 2008-ci ildə ABŞ-da keçirilən yarış barəsində məlumat vermək yerinə düşər. Nyu-York, Florida, Ayova və Oreqon şəhərlərində keçirilən yarışlar gərgin və maraqlı keçsə də, qəflətən dayandırılmışdı. Səbəb triatlonçulardan bir neçəsini eyni vaxtda meduzaların dişləməsi olmuşdu. Hətta Nyu-York mərhələsində 32 yaşlı Esteban Neyva həyatla vidalaşmışdı. Meduza argentinalı idmançını dişlədikdən sonra, o dərinlikdə hərəkətsiz qalıb, boğulmuşdu. Necə düşünürsüz, bunu bədbəxt hadisə kimi qələmə vermək, yoxsa triatlonun təhlükəli idman növü olması ilə əlaqələndirmək olar?

## Topla saralan yaşıl örtük

Dünya futboluna böyük töhvələr verən almanlar təkcə yarışlardakı uğurları ilə diqqət mərkəzinə düşmür. Onların futbolla bağlı keçirdiyi aksiyalar indiyə qədər dünyanın xəbər manşetlərini əsasını təşkil edir. Bildiyiniz kimi, 2006-cı ildə Almaniya futbol üzrə 18-ci dünya çempionatına ev sahibliyi etmişdi. DÇ-ni təbliğ etmək üçün 2005-ci ildə bundesliqanın sponsorları maraqlı bir layihə həyata keçirmişdilər. Almanlar qərara almışdılar ki, yoxlayıb, görsünlər bir stadionun ot örtüyünü neçə topla bağlamaq olar. İl yarım hazırlıqdan sonra nəhayət ki, bu layihə uğurla həyata keçmişdi. Mühenqladbax şəhərində yerləşən "Borussia Park"ın ot örtüyü 142 min sarı rəngli topla "saralmışdı". Bunun üçün almanlara 27 konteyner, 3 konteynerdaşıyıcı, ümumi çəkisi 86 ton olan 10 min karton, vertolyot, 10 avtobus, 2 qoşqu, yüzlərlə insan əməyi, xeyli vaxt və böyük pullar gərək olmuşdu. Bununla almanlar nəinki bütün dünyanın diqqətini özlərini cəlb etmişdilər, həttə dünya tarixində rekorda imza atmışdılar. Halhazırda həmin layihə Ginnesin rekordlar kitabının bəzəyidir.



***Hazırladı:***
***Anar Əhmədov***

# Dünya idmanı



## Keniyalı idmançının bir saniyəlik dünya rekordu




Keniyalı idmançı Beatris Çepkoeç 5 kilometr qaçış üzrə dünya rekorduna imza atıb. İdmançı bu uğura Monakoda keçirilən yarışda nail olub. B.Çepkoeç bu məsafəni 14 dəqiqə 43 saniyəyə qət edib. Qeyd edək ki, bu əvvəlki dünya rekordundan 1 saniyə qısadır. Əvvəlki rekord niderlandlı Sifan Hassana məxsus idi.

29 yaşlı Beatris Çepkoeç 3 min metrə maneələrlə qaçış üzrə hazırkı dünya çempionudur. O, bu növdə də dünya birincisidir - 8.44,32.

## olimpnews.az - sizin saytınız






*Şaquli*

**2.** Rumıniyalı peşəkar tennisçi Simona... **4.** Şəhərlərarası velosiped yarışı. **5.** Fiqurlu konkisürmədə çıxış elementi. **8.** Sumo döyüşçüsünün ən yüksək titulu. **10.** İngiltərə Premyer liqasında çıxış edən futbol klubu. **11.**...Olimpiya İdman Kompleksi, rayon. **14.** Ölkəmizdə fəaliyyət göstərən cüdo klubu. **16.** İdman qurğusu. **17.** "Şahmat tacı"nın hazırki sahibi. **18.** Topun kənardan çıxması. **21.** Qılıncoynatma müəllimi, ustad.

*Üfüqi*

**1.** NBA-da Bronks şəhərinin kollecini təmsil edən komanda. **3.** "Vest Hem" klubunun kapitanı. **6.** Qazaxıstan çempionatında çıxış edən klub. **7.** İspaniyanın Araqon vilayətini La Liqada təmsil edən klub. **9.** Bir futbolçunun bir matçda vurduğu 6 top. **12.** "Manhetten...". **13.** "Qoca sinyora"nın türkiyəli futbolçusu. **15.** İdman qurumu. **19.** Şərq əlbəyaxa döyüş növlərini tədris edən məktəb. **20.** XIV Qış Olimpiya Oyunlarına ev sahibliyi edən şəhər.

## Tennisçi gözlənilməz hücuma məruz qaldı

Yaponiyalı tennisçi Naomi Osaka Australian Open turnirinin üçüncü dairəsi zamanı Tunisdən olan Ons Jaber ilə qarşılaşmada gözlənilməz və maraqlı hadisə ilə üzləşib. Belə ki, görüş zamanı kəpənək idmançıya rahat hərəkət etməyə mane olub. Heç bir halda uçmaq istəməyən kəpənək N.Osakanın ayaqlarına, sifətinə və qollarına qonub. Lakin kiçik həşəratın idmançıya yaşatdığı problemlərə baxmayaraq, Naomi



Osaka inamlı qələbə qazanıb. 1 saat 8 dəqiqə davam edən görüş 6:3, 6:2 hesabı ilə başa çatıb.

Xatırladaq ki, Australian Open 2021-ci ildə "Böyük dəbilqə"nin birinci turniridir. Koronavirus pandemiyası səbəbi ilə tennisçilər turnirdən əvvəl karantinə yerləşdiriliblər.

## Baş məşqçinin mənzili qarət edilib

Naməlum şəxslər cümə günü axşam saatlarında Mersisayd qraflığında İngiltərənin "Everton" futbol klubunun baş məşqçisi Karlo Ançelottinin mənzilini qarət ediblər. Bu barədə İtaliyanın "Football İtalia" portalı məlumat yayıb.

Evə daxil olan iki cinayətkar maskada olublar. Onları mənzildən 61 yaşlı italyalı mütəxəssisinin qızı qorxudaraq, qaçırıb. Polisin məlumatına görə, qarətçilər bununla belə, Ançelottinin seyfini aparıblar. Hadisə zamanı onun ailə üzvlərindən heç kim zərər çəkməyib, baş məşqçi özü isə soyğunçuluq zamanı evdə olmayıb.

Ançelotti 2013-cü ildən 2015-ci ilə qədər Madridin "Real" klubunda işləyib. Komanda onun rəhbərliyi altında İspaniya Kubokunu, Çempionlar Liqasını, UEFA Superkubokunu və klublararası dünya çempionatını qazanıb. Ançelotti 2019-cu ilin dekabrından "Everton"a başçılıq edir.

## Ronaldo özünə 9 milyonluq ad günü hədiyyəsi alır

"Yuventus"un portuqaliyalı futbolçusu Kriştianu Ronaldo dünyada məhdud sayda istehsal edilən "Bugatti Centodieci" markalı yeni avtomobil sifariş edib.

Bu yaxınlarda 36 yaşı tamam olan Ronaldo bu maşını özünə ad günü hədiyyəsi edəcək. Onun yeni avtomobili üçün 9 milyon 500 min avro ödədiyi bildirilib.

Kriştianunun 20-dən çox bahalı və son model maşınları var. Onların qiyməti ümumilikdə 30 milyon avrodan çoxdur.

"Zenit" Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin sədri Fazil Hadıbəyov və kollektivi Sumqayıt şəhər "Zenit" BTİCİB-nin sədri, Əməkdar bədən tərbiyəsi və idman xadimi Mirzə Əliyevə, anası

**Zəhra Abbasqulu qızı Əliyevanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

"Olimpiya dünyası" qəzetinin kollektivi Sumqayıt şəhər "Zenit" BTİCİB-nin sədri, Əməkdar bədən tərbiyəsi və idman xadimi Mirzə Əliyevə, anası

**Zəhra Abbasqulu qızı Əliyevanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir. Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19

DİQQƏT! Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.